# Şuşadan yüksələn atəşfəşanlıq dünyaya yayıldı

*Bir neçə gün əvvəl – noyabrın 8-də Şuşanın işğaldan azad edilməsinin birinci ildönümü münasibətilə Vətən müharibəsindəki Qələbəmiz təntənə ilə qeyd olundu. Zəfər Günü münasibətilə torpaqlarımızın işğaldan azad edilməsi və şanlı Zəfər tariximizə həsr olunan musiqili atəşfəşanlıq keçirildi. Atəşfəşanlıqda Üzeyir Hacıbəylinin "Koroğlu" operasının uvertürası, "Cəngi", "Qarabağ şikəstəsi", Fikrət Əmirovun "Azərbaycan kapriççiosu" və digər əsərlər səsləndirildi. Zəfər Günü Şuşa ilə yanaşı, respublikamızın bölgələrində, eyni zamanda, dünyanın müxtəlif ölkələrində də qeyd olundu.*



Şuşada keçirilən atəşfəşanlığın parlaq ziyası həm xain qonşularımızın, həm də onların himayədarlarının gözlərini kor etdi, sinələrinə sağalmaz dağ çəkdi. Onu da qeyd edək ki, Şuşa döyüşləri İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun qələbəsi ilə nəticələnən ən uğurlu əməliyyatlardandır.

Şuşadakı təntənəli Zəfər bayramında iştirak edən möhtərəm Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bölgəyə növbəti səfəri Füzuli rayonunda Zəfər yolunun açılışı ilə başlandı. Bu yolun tikintisi qısa vaxtda həyata keçirilmişdir. Bu, xalqımızın qazandığı parlaq Qələbənin simvoludur.

Xatırladım ki, Füzuli Beynəlxalq Hava Limanının da tikintisi qısa vaxt ərzində –8 aya tamamlandı. Hava limanı kimi, Zəfər yolu da ali mühəndislik düşüncəsinin, yüksək texnoloji imkanların istifadə olunduğu layihələrdir. Bu işlər ilin bütün fəsillərində çətin relyef şəraitində, keçilməz dağ yolları yarılaraq həyata keçirilib. Belə qısa vaxtda icra olunan və dünyada analoqu olmayan layihə Azərbaycan dövlətinin gücünü, iqtisadi qüdrətini, onun malik olduğu potensialı, ən əsası isə Prezident İlham Əliyevin qətiyyətini bütün dünyaya göstərdi. Dünya ictimaiyyəti bir daha şahid oldu ki, möhtərəm Prezidentimizin siyasi iradəsi bütün çətinliklərin aradan qaldırılmasına qadirdir. Şanlı Ordumuzun ölkəmizin mədəniyyət paytaxtı olan Şuşa şəhərini mənfur düşməndən azad edərkən də bunun şahidi olduq. Rəşadətli ordumuzun istifadə etdiyi cığır-yolun əbədiləşdirilməsi məqsədilə tikilən və müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən "Zəfər yolu" adlandırılan magistralın inşası dövlətimizin başçısının daimi nəzarəti altında icra olunub.

Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilən Zəfər yolu Qarabağın tacı olan Şuşa şəhərinə qədər uzanır. Bu layihə böyük əhəmiyyət kəsb edir. Hər şeydən əvvəl ona görə ki, öz ata-baba yurdlarına qayıdacaq keçmiş məcburi köçkünlər bu yoldan yararlanacaqlar. Bu yol, eyni zamanda, oydaşlarımızın rahatlığının təmin olunmasına, onlar üçün yüksək səviyyəli həyat və yaşayış şəraitinin yaradılmasına xidmət edəcək.

Düz bir ildən sonra Cıdır düzündə "Xarıbülbül" beynəlxalq musiqi festivalı keçirildi. Şuşa məscidində səsləndirilən azan səsi, Cıdır düzündən əks-səda verən muğam sədası, Vaqifin məqbərəsi önündə söylənilən şeirlər, Vaqif Poeziya Günləri çərçivəsində Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Şuşadakı Yaradıcılıq Mərkəzində "Yaddaş. Fotoqrafik tarix", Rəsm Qalereyasında "Qarabağ – Azərbaycan mədəniyyətinin incisidir" və Xalçaçılıq Qalereyasında "Yenidən doğma diyarda. Qarabağın sənət inciləri" adlı sərgilərin keçirilməsi beynəlxalq ictimaiyyətə bir daha sübut etdi ki, Qarabağ Azərbaycandır! Dövlət başçımızın qeyd etdiyi kimi, artıq bu torpaqlarda yad dildə nə mahnı eşidiləcək, nə başqa bir yersiz bəyanat səslənəcək. Bundan sonra bu diyara Azərbaycan dili hakim olacaq, necə ki, tarixdə belə olub.

Bu unudulmaz xoşbəxt günləri xalqımıza, dünya azərbaycanlılarına möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz bəxş etdi. Bir il bundan əvvəl iqtidar–xalq – ordu vəhdəti, siyasi həmrəylik və milli birlik elə bir tarix yazdı ki, bu, bütöv bir millətin ləyaqət rəmzinə, milli qeyrət nümunəsinə çevrildi. 30 illik işğala cəmi 44 gündə son qoyuldu və tariximizə yeni şanlı səhifə yazıldı. Bu tarixi Qələbə düşmənin üstümüzə atdığı ləkəni təmizlədi, qamətimizi düzəltdi, illərlə həsrətində olduğumuz torpaqlarımıza, ata-baba yurdumuza qovuşduq. Dövlət başçımızın qətiyyəti sayəsində dünya birliyinin göz yumduğu ədalətsizliyi öz gücümüzlə, ordumuzun qüdrəti ilə aradan qaldırdıq.

Qələbəmizin memarı olan dövlətimizin başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Şuşada hərbçilər qarşısında çıxışı zamanı da bu məqamları diqqətə çatdırdı. O, 2003-cü ildə Prezident seçildikdən sonra andiçmə mərasimində demişdir ki, nəyin bahasına olursa-olsun, torpaqlarımızı alacağıq. Həmin 31 oktyabrda keçirilən andiçmə mərasimində dövlət başçımızın dediklərini olduğu kimi xatırladıram: "Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycan heç vaxt bu vəziyyətlə, torpaqlarının işğal altında qalması ilə barışmayacaqdır".

Prezident seçildiyi gündən xalqa verdiyi vədləri layiqincə yerinə yetirən dövlət başçımız bu vədinə də sadiq qaldı. 17 ildən sonra Ermənistan ordusu işğal etdiyi Azərbaycan torpaqlarından qovuldu və ərazi bütövlüyümüz təmin edildi.

Möhtərəm Prezidentimiz Şuşada hərbçilər qarşısında çıxış edərkən dedi ki, uzun illər aparılan sülh danışıqları heç bir nəticə vermədi: "Nəticə sıfıra bərabər oldu. Əksinə, düşmən daha da azğınlaşmış, qudurmuşdu. Əgər işğalın ilk illərində hələ danışıqlarla bağlı Azərbaycan xalqında və məndə hər hansı bir ümidlər var idisə, son vaxtlar bu ümidlər tamamilə aradan qaldırıldı. Ermənistan və onun havadarları bu işğalı əbədi etmək istəyirdilər. Onlar hesab edirdilər ki, əgər 30 ilə yaxın bizim torpağımızı işğal altında saxlaya biliblərsə, bundan sonra da torpaqları əbədi olaraq işğal altında saxlayacaqlar. Amma səhv etdilər. Onlar bilməli idilər ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq".

Xarici havadarlarının azğınlaşdırdığı işğalçı ölkə unutmamalı idi ki, qəhrəman ordumuz nəyin bahasına olursa-olsun, düşməni darmadağın edəcək və ədalətsizliyə son qoyacaq. Neçə illər idi ki, biz buna hazırlaşırdıq. Tarixi Qələbəni qazanmaq üçün, ilk növbədə, güclü ordu formalaşdırılmalı idi. Dövlət başçımız bu sahəni daim diqqət mərkəzində saxlayırdı. Hərbçilərlə görüşündə də bu məsələni diqqətə çatdırdı. "Buna hazır olmalı idik, xalq olaraq, dövlət olaraq, bütün hazırlıq işləri vaxtlı-vaxtında aparılmalı idi və aparılmışdır" – deyən möhtərəm Prezidentimiz ordu quruculuğu və hərbi potensialımızın möhkəmləndirilməsinin onun üçün başlıca vəzifə olduğunu bildirdi.

Prezident qeyd etdi ki, ölkəyə rəhbərlik etdiyi illərdə dövlət büdcəmizin əsas xərcləri hərbi məqsədlər üçün nəzərdə tutulurdu. Məhz bu diqqət və qayğının nəticəsidir ki, həmin illər ərzində güclü hərbi-texniki potensial yaratmışıq. Ən müasir silah-sursatlar, texnikalar ölkəmizə gətirildi və hərbçilər tərəfindən bundan layiqincə istifadə olundu. İkinci Qarabağ müharibəsində qazandığımız şanlı Qələbə bunun əyani sübutudur. Müntəzəm olaraq hərbi təlimlər keçirildi, məşqlər keçirildi və beləliklə, Silahlı Qüvvələrimizin həm texniki təchizatı, həm mənəvi-psixoloji ruhu, həm də döyüş qabiliyyəti böyük dərəcədə artdı. Bunun əyani sübutu Ermənistan ordusunun 44 gün ərzində darmadağın edilməsi oldu. Azərbaycan Ordusu dünyanın 50 ən güclülərindən biri olduğunu sübut etdi.

Dövlət başçımız hərbçilərlə görüşündə bir də dedi: "Biz bütün dünyaya göstərdik ki, kim kimdir. Bütün dünyaya göstərdik ki, biz böyük xalqıq. Bundan sonra Qarabağda və Zəngəzurda əbədi yaşayacağıq. Əgər Ermənistanda hər hansı bir qüvvə bizə xor baxarsa, hansısa revanşist meyillərə əl atarsa, bizim yumruğumuzu görəcəkdir. Bizim yumruğumuz yerindədir".

***Məlahət İBRAHİMQIZI,***
***Milli Məclisin deputatı***